UOT 37.0

***Mübariz Tahir oğlu Süleymanov***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Respublikası Təhsil İnstitutu*

# YUXARI SİNİF ŞAGİRDLƏRİNİN ÖZÜNÜTƏHSİL FƏALİYYƏTİNİN PEDAQOJİ VƏ PSİXOLOJI ƏSASLARI

***Мубариз Тахир оглы Сулейманов***
*диссертант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# ПЕДАГОГИЧЕСКИЕ И ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ САМООБРАЗОВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧАЩИХСЯ СТАРШИХ КЛАССОВ

***Mubariz Tahir Suleymanov***
*doctorial student in the program of doctor of philosophy*
*Institute of Education of the Republic of Azerbaijan*

# PEDAGOGICAL AND PSYCHOLOGICAL FOUNDATIONS OF SELF-EDUCATIONAL ACTIVITIES OF SENIOR STUDENTS

**Xülasə.** Məqalədə qeyd olunur ki, yuxarı sinif şagirdlərinin şəxsiyyətyönlü uğurlu inkişafında özünütəhsilə marağın formalaşması həyati tələbata çevrilmişdir ki, bu da pedaqogika sahəsində özünütəhsillə bağlı yeni yanaşmalar və yolların axtarılmasına, tədqiqatların aparılmasına zərurət yaradır. Müəllif tədqiqatın məqsədini aydınlaşdırmış, şagirdlərinin müstəqil fəaliyyətini araşdırmış, pedaqoji və psixoloji təhlillərə əsasən özünütəhsilin məğzini müəyyənləşdirmiş, bu sahədə aparılan işlərin yollarını göstərmişdir.
***Açar sözlər:*** *özünütəhsil, yuxarı sinif şagirdləri, fəallıq, müstəqillik, dünyagörüşü, inkişaf, fəal və yaradıcı düşünmək, didaktik sistem*

**Резюме.** В статье отмечается, что формирование интереса к самообразованию в успешном личностно-ориентированном развитии старшеклассников стало жизненной необходимостью, что порождает необходимость поиска новых путей, подходов и способов самообразования в области педагогики. Автор определяет цель исследования, выявляет сущность самообразования учащихся на основе их самостоятельной деятельности, анализирует педагогическую и психологическую литературу, а также указывает способы работы в этой сфере.
***Ключевые слова:*** *самообразование, старшеклассники, активность, самостоятельность, мировоззрение, развитие, активное и творческое мышление, дидактическая система*

**Summary.** The article notes that the formation of interest in self-development and successful personal-oriented development of senior classmates has become a lifelong necessity, which gives rise to the need to search for new ways and approaches. The author determines the purpose of research, identifies the essence of self-education of students on the basis of their independent activity, analyzes the pedagogical and psychological literature, as well as indicates the methods of work in this area.
***Keywords:*** *self-education, seniors, activity, self-awareness, worldview, development, active and creative thinking, didactic system*

Müasir dövrdə şagirdlərin müxtəlif mənbələrdən məlumatlar alması onların bir çox bacarıqlara malik olmasını, dünyagörüşünün genişləndirilməsini tələb edir. Lakin nəzarət olmadan onların əksəriyyəti əldə etdikləri intellektual potensialı cəmiyyətin inkişafına yönləntmir və bunun haqqında belə düşünmürlər. Bu istiqamətdə müəllimlərin vəzifələrindən biri də yalnız əqli proseslərin, forma və metodların formalaşdırılması deyil, həmçinin şagirdlərin sosial əhə-

miyyətli keyfiyyətlərinin inkişafına nail olmasıdır. Belə ki, şagirdlərin uğurlu surətdə özünü reallaşdırması və gələcəkdə karyera qurması üçün özünü inkişaf etdirmək mühüm amildir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd olunur ki, sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir"[1 ].

Təcrübə göstərir ki, yeniyetmə gənclərin fəaliyyətində dərs prosesində qazanı-lan biliklər başlıca rol oynasa da, bu və ya digər problemlərin həllində yalnız məktəb təlimində verilən biliklərlə kifayətlənmirlər. Dünyanı cənginə alan koronovirus (Covid 19) pandemiyasının 2020-ci ilin mart ayından ölkəmizdə yayılması özünütəhsil fəaliyyətini ön plana çəkdi. Təlimin onlayn keçirilməsi kifayət qədər səmərəli olmadığı üçün (internetin bəzi bölgələrdə olmaması, zəif olması, şagirdlərin səhlənkarlığı və s.) bu boşluğu özünütəhsil fəaliyyəti az da olsa aradan qaldırdı.

Müasir dövrdə məktəb təhsili şagirdləri özünütəhsilə istiqamətləndirməsi vacibdir. Bu baxımdan da yuxarı sinif şagirdlərinin özünütəhsilinin pedaqoji, psixoloji və sosial məsələlərinə diqqət yetirmək məqsədəuyğundur.

Tədqiqatın məqsədi yuxarı sinif şagirdlərinin özünütəhsili üzrə müstəqil fəaliyyətini araşdırmaq, didaktik sistem yaratmaq və bu sahədə aparılan işlərin yollarını göstərməkdir.

Elmi-pedaqoji ədəbiyyatın təhlilindən belə qənaətə gəlmək olar ki, özünütəhsil üzrə yuxarı sinif şagirdlərinin idrak fəallığının və fasiləsiz olaraq onlarda bilik əldə etməyə yaranan tələbatın ödənilməsinin təmin edilməsi haqqında fikirlər mövcud olsa da, bu istiqamətdə ölkəmizdə kifayət qədər tədqiqat işləri aparılmamaışdır.

Araşdırmalar göstərir ki, pedaqogika və psixologiya üzrə elmi tədqiqatlarda tədqiq etdiyimiz problemin müxtəlif cəhətlərinə münasibət bildirilmişdir. (Z.İ Qaralov, Ə.Ə. Əlizadə, Ə.Ə. Qədirov, Ə.Ə.Ağayev, İ.H Cəbrayılov, F.N. İbrahimov, H.H. Əhmədov, Z.İ. Əliyeva, Ə.S. Bədəlova və b.).

B.F. Apoyev "Nizami Gəncəvinin pedaqoji görüşləri" əsərində yazır: "Mütəfəkkir şair-pedaqoq başqalarına özünütərbiyə haqqında məsləhətlər verməklə yanaşı, ən çox özünə öyüd-nəsihət vermiş, özünə göstəriş vermək, özünü ruhlandırmaq, öz nöqsanını etiraf etmək, özünü qiymətləndirmək və s. kimi özünütərbiyə üsullarından dönə-dönə istifadə etmişdir. Fikrimizi sübut etmək üçün "Sirlər xəzinəsi" poemasından bir nümunəyə diqqət yetirək:

*Təzələdi dünyamı könül mülkünün şahı,*
*Nizamiyə açıqdır fələklərin dərgahı.*
*Paklıqdan, ülvilikdən uzaq olsam, nəyəm mən?*
*Könlümün sərvərinə müqəddəs bəndəyəm mən.*

... Fikrimizcə, dahi şairin özünün kamil bir şəxsiyyət kimi formalaşmasında və dünya şöhrətli "Xəmsə"ni yaratmasında məhz özünütəhsil və özünütərbiyənin çox böyük rolu olmuşdur" [2,s.17-18]. Beləliklə, dahi şair-pedaqoqun təhsil, təlim və tərbiyənin ümumi məsələləri ilə bağlı fikirlərini aşağıdakı kimi ümumiləşdirmək olar: – şəxsiyyətin formalaşmasında irsiyyətin rolu böyükdür, lakin həlledici deyil, kamil insanın formalaşmasında elmin, təhsilin, təlim və tərbiyənin əhəmiyyəti şübhəsizdir, lakin özünütəhsil və özünütərbiyənin rolu daha böyükdür.

Özünütərbiyə ilə bağlı Z.İ. Əliyevanın da fikirləri maraq doğurur. O, qeyd edir ki, müxtəlif tərbiyə təsirləri, xüsusən də pedaqoji təsirlər o zaman səmərəli nəticə verir ki, o, tərbiyə olunanların daxili aləminə təsir etsin, onların mənəvi dünyasını hərəkətə gətirsin. Bu daxili hərəkətəgəlmə özünütərbiyə meyllərinin yaranmasına səbəb olur. Ziddiyyətlər zamanı insan özünə, hərəkət və davranışlarına nəzər salmağa, təhlil etməyə məcbur olur. Obyektiv təhliletmə isə müsbət və mənfi keyfiyyətlərin müəyyən edilməsinə imkan yaradır, insan öz mövqeyini düzgün müəyyən edir, mənfi keyfiyyətlərini aradan qaldırmaq arzusuna düşür. ....Özünütərbiyə anlayışı geniş mənada özünütəhsil anlayışını da əhatə edir. Dar mənada isə özünütərbiyə cəmiyyətin və fəaliyyətin tələbi əsasında insanın özündə yeni mənəvi keyfiyyətləri formalaşdırması və ya hər hansı əxlaqi keyfiyyətləri adət və

rəftarından çıxarması prosesidir [4,s.64]. Müəllifin fikirlərindən belə nəticəyə gəlmək olar ki, özünütərbiyə prosesi özünütəhsil olmadan reallaşa bilməz. Özünütəhsil isə geniş məna daşıyaraq xüsusi tədqiqatın aparılmasını tələb edir.

Ə.Ə. Əlizadə yeniyetməlik dövründə şagirdlərin psixoloji xüsusiyyətlərindən yazarkən qeyd edir: "Yeniyetməlik dövründə şagirdlərin həyati planları, adətən, onların arzu və xəyallarından ayrılmır. Başqa sözlə, əgər yeniyetmə oğlan və qızlar peşə haqqında söhbət edirlərsə, bu, sadəcə olaraq əsrarəngiz uşaq xəyalının ifadəsi kimi səslənir. Böyük məktəbli yaşı dövründə isə peşəseçmə reallaşır, çoxlu fantastik və ya mücərrəd imkanlardan ən real və ağlabatan variantlar ayırd edilir. Peşəseçmə böyük məktəbli üçün ən mühüm, təxirəsalınmaz və çətin işə çevrilir. ....Böyük məktəbli yaşı dövründə mənlik şüurunda meydana çıxan xüsusiyyətlər öz əksini şagirdlərin özünütərbiyə tələbatında tapır. Bu yaşda özünütərbiyə artıq sadəcə olaraq ayrı-ayrı davranış nöqsanlarının aradan qaldırılmasına və ya müvafiq müsbət keyfiyyətlərin inkişaf etdirilməsinə deyil, bütövlükdə şəxsiyyətin təşəkkülünə doğru yönəlir" [5, s.343].

Bu fikirlərin özünütəhsillə bilavasitə bağlılığı vardır. Çünki şəxsiyyətin tərbiyəsi, təşəkkülü özünütəhsil olmadan həyata keçə bilməz. Müəllifin yazdığı fikirlər yuxarı sinif şagirdlərinin özünütəhsillə əlaqədar qarşıya qoyduqları məqsədləri əks etdirir, lakin bunlar tədqiq etdiyimiz problemin məzmununa tam aydınlıq gətirmir.

Prof. H.H. Əhmədov da özünütəhsilin insan həyatında böyük rol oynadığını və ilk növbədə özünütərbiyəyə ciddi əhəmiyyət verilməsini vacib sayır. O, hesab edir ki, özünütərbiyə elə bir prosesdir ki, insan əvvəlki nəsillərin təcrübəsini öz daxili inkişafını təmin edən amillərlə mənimsəyir. Əgər tərbiyə məcburi deyilsə, özünütərbiyə olmadan bu, mümkün deyildir. Odur ki, onu eyni prosesin iki tərəfi kimi nəzərdən keçirmək lazımdır. Özünütərbiyə həyata keçirildikdə insan özünü təhsilləndirə bilər.

Özünütəhsil elə bir daxili təşkilolunma sistemidir ki, burada özünüinkişafa istiqamətlənmiş nəsillərin təcrübəsinin mənimsənilməsi nəzərdə tutulur. "Özünütərbiyə", "özünütəhsil", "özünütəlim" anlayışlarında pedaqogika, ümumiyyətlə, insan aləminin daxili, mənəvi tərəfini təsvir edir, onun müstəqil inkişafetmə bacarığını göstərir" [6, s. 54]. Bu baxımdan da özünütəhsil prosesində yuxarı sinif şagirdlərinin maraq və meylləri, onları narahat edən məsələlər, ümumi dünyagörüşünün genişləndirilməsinə yönələn didaktik iş sisteminin yaradılması zəruridir.

G.M. Nəzərova "Pedaqoji sinertgetikanın nəzəri əsasları" adlı monoqrafiyasında qeyd edir ki, uşaq və yeniyetmə kollektivlərinin özünütəşkil və özünüidarəyə meylli olması və bundan bacarıqla istifadə edilməsi təlim-tərbiyə işində müsbət nəticələr verir. Onun xarici mühit ilə (həmyaşıdları, valideynlər, müəllimlər və b.) qarşılıqlı əlaqəsi öyrənilərkən təhsil prosesində şəxsiyyətin formalaşmasına təsir edən özünütəşkil və özünüinkişafı nəzərə almaq lazımdır. Məsələn, informasiya və enerji axını müəllim tərəfindən gəlir, onun özünəməxsusluğunun təşəkkülü gələcək mütəxəssisdə özünütəşkil və öz biliyini inkişaf etdirmə proseslərini oyadır. Bu iş birli-yinin sinergetik (müxtəlif təbiətli sistemlərdə özünütəşkil prosesləri əsasında duran ümumi qnunauyğunluqların və prinsiplərin dərk edilməsidir) yanaşma mövqeyindən bir sıra xüsusiyyətləri olmalıdır [8,s.19]. Özünütəhsil probleminin həllində bu məsələlərin də nəzərə alınması məqsədəuyğundur.

S.İ. Seyidov və M.Ə. Həmzəyevin fikirlərinə görə "özünütərbiyə insanın şüurlu olaraq qarşısına qoyduğu məqsədə, ideal və inamlarına müvafiq şəkildə öz şəxsiyyətində dəyişikliklər etməyə yönəlmiş fəaliyyətindən ibarətdir. Özünütərbiyənin həyata keçməsi üçün şəxsiyyətin və onun özünü dərk etməsinin müəyyən inkişaf səviyyəsinin, özünün hərəkətlərini başqalarının hərəkətləri ilə müqayisə zamanı təhlildən istifadə edə bilmək qabiliyyətinin, eləcə də daim özünütəkmilləşdirmək ustanovkasının olması tələb edilir.

Şəxsiyyətin özünütəkmilləşdirməsi onun cəmiyyətdəki həyati tələbatları və fəaliyyəti, inkişafı ilə şərtlənir. İnsanın yaşadığı ictimai şərait, aldığı təlim və tərbiyə onun özünütərbiyəsində həlledici rol oynayır. İctimai həyatı, eləcə də onu əhatə edən mühitin tələblərini, öz qüvvə və imkanlarını aydın dərk etməsi əsasında insanın öz həyatını daha münasib əsaslar üzrə qurmaq üçün arzu etdiyi keyfiyyətləri özündə inkişaf etdirməsi və ya malik olduğu şəxsi keyfiyyətləri dəyişdirməkdən ötrü özünə şüurlu, planlı, məqsədəuyğun və müntəzəm surətdə təsir etməsi,

rəftar və davranışını təkmilləşdirmək qayğısına qalması özünütərbiyə adlanır" [11, s.508-509].

Qeyd etmək lazımdır ki, müəlliflərin deyilən fikirləri yuxarı sinif şagirdlərinin özünütəhsil fəaliyyətində də özünü büruzə verir. Çünki özünütəhsil prosesində şagird biliklərini genişləndirməklə yanaşı, həm də özünütərbiyə prosesi baş verir. Şagirdin həyatında elə bir məqam olur ki, o, öz fəaliyyətindən razı qalmır və şüurlu surətdə hər hansı bir sahədə biliklərini artırmağa çalışır. Bu tələbatların əsasında o, həm bilik əldə edir, həm dünyagörüşü genişləndirir, həm də sosial mühitdə özünü reallaşdırmaq üçün müəyyən keyfiyyətlər əldə edir.

Araşdırmalardan aydın olur ki, şagirdlərin dünyagörüşünün, şəxsiyyətinin formalaşdırılmasında özünütəhsil fəaliyyəti mühüm rol oynayır. Lakin bəzi tədqiqatlarda araşdırılan problem dolayısı ilə özünütəhsillə bağlı olsa da, buna aydınlıq gətirilmir.

Elmi dünyagörüşün formalaşması haqqında F.B. Sadıqovun fikirləri də maraqlıdır. O yazır: "Bir sıra müəllimlər, metodistlər hesab edirlər ki, orta məktəblərdə təlim prosesində dünyagörüşünün formalaşdırılması imkanları ona görə məhduddur ki, orta məktəblərdə sistemli şəkildə fəlsəfə, iqtisadiyyat, pedaqogika kimi fənlər tədris olunmur. Elmi dünyagörüşünün formalaşdırılması yalnız ali məktəblərdə mümkündür. Əlbəttə, bu səhv yanaşmadır. Birincisi, ona görə ki, hər yaş dövrünün öz xüsusiyyətləri və müvafiq elmi dünyagörüşü qazanmaq imkanları vardır. İkincisi, orta məktəblərdə əsası qoyulmayan xüsusiyyət, əlamət və keyfiyyətlərin sonradan formalaşdırılması xeyli çətin olur. Üçüncüsü, yeniyetməliyin ikinci mərhələsi və erkən gənclik dövrü sosializasiya üçün münbit şərait, geniş psixoloji imkanlar dövrüdür və bu imkanın buraxılması, nəzarətdən çıxması zərərli dünyagörüşün formalaşması deməkdir [9, s. 257].

Müəllif şagirdlərdə dünyagörüşünün formalaşmasına düzgün yanaşsa da, bunun özünütəhsil prosesində daha səmərəli nəticə verəcəyi haqqında məlumat vermir, halbuki, deyilənlər özünütəhsil prosesində həyata keçir. Məhz özünütəhsil vasitəsilə şagirdlərin dünyagörüşünün genişləndirilməsi üçün əlverişli imkanlar yaranır.

Fikrimizcə, öyrənənin müstəqil işi və özünü inkişaf etdirməsi zamanı bilik əldə etmə, sosial-mədəni və şəxsiyyətyönlü keyfiyyətlərlə yanaşı, özünütəhsilin bir sıra pedaqoji xüsusiyyətlərinin də nəzərə alınması zəruridir. Bunlar aşağıdakılardır:

– yuxarı sinif şagirdlərinin müxtəlif fəaliyyət növlərinə cəlb edilməsi;

– yuxarı sinif şagirdlərinin özünütəhsilinin gələcək həyata istiqamətlənməsi;

– özünütəhsilin bütün formalarına marağın yaradılması;

– özünütəhsilin yuxarı sinif şagirdlərinin qabiliyyətlərinin inkişafı ilə uyğunluğu;

– peşə seçimində yuxarı sinif şagirdlərinin öz imkanlarının qiymətləndirilməsi.

İ. Seyidov və M.Ə. Həmzəyev qeyd edirlər ki, ilk gənclik dövründə təlim fəaliyyəti bir sıra xüsusiyyətlərinə görə məktəb yaşının əvvəlki dövrlərindən fərqlənir. Bu dövrdə təlim fəaliyyəti həm məzmun, həm də formaca yeni xüsusiyyətlər kəsb edir. Təlim fəaliyyətinin məzmununa yeni anlayışlar sistemi daxil olur. Onlar özlərinin əhatəliliyinə görə əvvəlkilərdən fərqlənir. Mücərrəd anlayışların miqdarı artır. Yeni fənlərin və bilik sahələrinin öyrənilməsi tələb olunur. Təlimin formasında da dəyişikliklər baş verir. Təlim prosesində müasir texniki vasitələrdən istifadəyə geniş yer verilir. Bütün bunları mənimsəmək böyük məktəblilərdən yüksək hazırlıq, nəzəri təfəkkürün inkişafını, yaradıcılıq qabiliyyətlərinin təşəkkülünü tələb edir" [10, s. 269]. Müəllifin fikri ilə razılaşaraq qeyd etmək olar ki, bütün sadalanan xüsusiyyətlərə özünütəhsil prosesində nail olmaq olar.

Özünütəhsil inkişaf prosesidir. Təcrübə və araşdırmalar göstərir ki, özünütəhsil mahiyyətinə görə biliklərin əldə edilməsi, əqli qabiliyyətlərin formalaşması, təşkilatçılığın, müstəqilliyin, fəallığın və tələbkarlığın inkişafı prosesidir. Yuxarı sinif şagirdlərinin özünütəhsilə marağı idrak tələbatlarından irəli gəlir və bunlar ətrafda baş verən hadisələrlə və mühitlə sıx bağlıdır. Ətraf mühitdən alınan informasiyalar şagirdləri fəallığa sövq edir. Bu informasiyalar şagirdlərin öz üzərində çalışması üçün stimul rolunu oynayır.

Şagirdlərin özünütəhsilindən danışarkən qeyd etmək lazımdır ki, onların təlimə marağı və tələbatının formalaşmasına bir sıra pedaqoji amil və metodik priyomlar təsir edir. Bu amil və priyomların psixoloji təsir mexanizmi ondadır ki, onlar şagirdlərin fikrindəki ziddiyyətləri meydana çıxarırlar. Yəni hazırda onlar necə

oxuyurlar və əslində necə oxumalıdırlar, yeni biliklər almağa necə stimullaşdırırlar, ətrafdakılarla necə münasibət qururlar və s. Mövcud ziddiyyətləri aradan qaldırmaqla yuxarı sinif şagirdlərinin intellekti inkişaf edir, çətin situasiyalardan uğurla çıxmaq bacarığı artır, özünə inam yaranır, ətrafdakılarla xoş ünsiyyət qururlar. Lakin, məlum olduğu kimi, özünütəhsil prosesində motivin yaradılmasının əhəmiyyəti böyükdür.

Professorlar Ə.S. Bayramov və Ə.Ə. Əlizadə yazırlar: "Motivlər hər bir fəaliyyət sahəsində özünəməxsus xüsusiyyətlərlə təzahür edirlər. Bu cəhəti nəzərə alsaq, biz onları fəaliyyətin növlərinə görə: oyun, təlim, əmək və yaradıcılıq motivləri kimi xarakterizə edə bilərik.

Təlim motivlərini adətən idrak motivləri və sosial motivlər olmaq üzrə iki böyük qrupa bölürlər. Əgər şagirdin fəallığı ayrı-ayrı fənlərin (Azərbaycan dili, riyaziyyat, tarix, kimya və s.) tədrisi prosesində öyrənilən obyektlərə yönəlmişdirsə, bu zaman idrak motivlərindən danışırlar. İdrak motivlərinin aşağıdakı növləri vardır:

1. Geniş idrak motivləri (şagird bütün fənlərdə yeni faktlar, nəzəri məsələlər, deduktiv nəticələr və s. ilə maraqlanır).

2. Tədris-idrak motivləri (şagirddə bir və ya bir neçə fənnə maraq əmələ gəlir, o, müvafiq fənləri daha ətraflı öyrənməyə başlayır).

3. Özünütəhsil motivləri (şagird maraqlandığı fənlər üzrə müstəqil surətdə yeni biliklər əldə etməyə başlayır).

Əgər təlim prosesində şagirdin fəallığı başqa adamlarla münasibət sahəsinə yönəlirsə, bu zaman sosial motivlər fərqləndirilir.

Bir sira hallarda şagirdlərdə yaradıcılıq motivləri də özünü göstərir. Bu zaman təlim motivlərinin xarakteri tədricən dəyişir, onlarda yaradıcılıq üçün səciyyəvi cəhətlər əsas yer tutmağa başlayır" [3, s. 73].

Beləliklə, özünütəhsilin motivini iki cür müəyyənləşdirmək olar: daxili və xarici motivlər. Daxili motivlərə şagirdlərin təlimlə bağlı və yaxud öz marağında olan məlumatların əldə edilməsi, xarici motivlərə isə yüksək qiymət almağa çalışmaq, həmyaşıdlarının gözündə ucalmaq, seçdiyi peşəyə aid biliklər qazanmaq, müəllimlərlə xoş münasibətdə olmağa cəhd etmək aiddir. Xarici motivlərin gücləndirilməsinə rəğbətləndirmə, mükafat, yüksək qiymətləndirmə, xoş münasibətlərin qurulması kimi amillər aiddir. Daxili motivlərə isə idrak fəallığını aktivləşdirən tapşırıqlar, tanış olmayan situasiyaların təqdim edilməsi və onların potensial imkanlarını meydana çıxaran çalışmalar aid edilir. Beləliklə, şagirdlərdə özünütəhsilə motiv oyadan səbəblər aşağıdakılardır:

– gündəlik yeniliklərə və informasiyalara tələbat;

– dərslərin mövzusu ilə bağlı yeni məlumatların öyrənilməsi;

– dünyagörüşünün genişlənməsi. Cəmiyyətdə və dünyada baş verən hadisələrlə tanışlıq;

– ali məktəbə hazırlıq;

– ictimai fikirlər və s.

Müəllifin fikrinə əsaslanaraq demək olar ki, özünütəhsil prosesində maraq və meylin olması, öyrənməyə daxili ehtiyacın yaradılması, yaradıcı fəaliyyətin nümayiş etdirilməsi mühüm şərtlərdir.

V.S.Veretennikova və A.O.Luçinina "Təlim prosesində məktəblilərin özünütəhsili" adlı məqaləsində qeyd edir ki, özünütəhsil müsbət motivasiyalı fəallığı və insanın şəxsi iradi səylərinin təzahürünü xarakterizə edən məqsədyönlü fəaliyyət kimi müəyyənləşdirilir. Bu, insanın özünüinkişafı prosesini təmin edən şəxsiyyətinin özünü ifadə etməsinin ali forması, yaradıcı fəaliyyət növüdür. Özünütəhsil, həmçinin həm ictimai, həm də subyektiv əhəmiyyət kəsb edən mənəvi və maddi dəyərləri yaradır. Şagirdlərdə özünütəhsilə cəhd etmək müxtəlif motivlər əsasında yaranır. Bunların içərisində müəyyən bilik sahəsinə maraq əsas rol oynayır. Özünütəhsil fəaliyyətində idraki marağın yeri xüsusi qeyd olunmalıdır [12, s. 7-9].

Elmi-pedaqoji ədəbiyyatın təhlilindən belə qənaətə gəlmək olar ki, özünütəhsil üzrə yuxarı sinif şagirdlərinin idrak fəallığının və fasiləsiz olaraq onlarda bilik əldə etməyə yaranan tələbatın ödənilməsinin təmin edilməsi haqqında fikirlər mövcud olsa da, bu istiqamətdə ölkəmizdə kifayət qədər tədqiqat işləri aparılmamışdır. Özünütəhsilin məğzi ondan ibarətdir ki, şagirdlər əqli əməyin yeni texnikası, mədəniyyəti ilə tanış olur, özünün təkmilləşməsi üzərində müstəqil olaraq işləyir. Özünütəhsil geniş pedaqoji imkanlara malikdir və yuxarı sinif şagirdlərinin hərtərəfli formalaşmasında (pedaqoji, psixoloji, fiziki, sosial-mədəni) böyük rolu vardır. Özünütəhsil şagirdlərdə biliklər sistemi, dünyagörüşü

formalaşdırması ilə yanaşı, məktəbliləri həyata hazırlayır, fəal və yaradıcı düşünməyi, hərəkət etməyi öyrədir, inkişaf etdirir və özünütəkmilləşdirməyə yönəldir. Müasir təhsil məhz bu cür səriştəli şəxsiyyətlərin yetişdirilməsini tələb edir.

**Problemin aktuallığı.** Hazırda dünyada gedən yeniləşmə prosesləri, ictimai, siyasi, mədəni proseslər, xüsusən də pandemiyanın tüğyan etməsi müəllimlərdən peşəsinə yaradıcı yanaşma bacarıqları tələb edir, gəncləri və uşaqları yeni bilik və bacarıqlara yiyələnməyə sövq edir. Bu baxımdan şagirdlərin özünütəhsili böyük aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Problemin elmi-pedaqoji ədəbiyyatda təhlili özünütəhsilin müxtəlif motivlər əsasında yaranmasını göstərir. Özünütərbiyə prosesi özünütəhsil olmadan reallaşa bilməz. Özünütəhsil fəaliyyətində idraki marağın yeri xüsusi qeyd olunur.

**Problemin praktik əhəmiyyəti.** Özünütəhsil şagirdlərdə biliklər sistemi, dünyagörüşü formalaşdırması ilə yanaşı, şagirdləri həyata hazırlayır, fəal və yaradıcı düşünməyi, hərəkət etməyi öyrədir, inkişaf etdirir və özünütəkmilləşdirməyə yönəldir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası //Azərbaycan müəllimi. - 2013, 25 oktyabr, - s. 2.
2. Apoyev, B.F. Nizami Gəncəvinin pedaqoji görüşləri / B.F. Apoyev.- Bakı: Adiloğlu, - 2008. -244 s.
3. Bayramov, Ə.S. Psixologiya / Ə.S.Bayramov, Ə.Ə. Əlizadə - Bakı: Çinar-çap, - 2002. - 287 s.
4. Əliyeva, Z.İ. Pedaqogika / Z.İ. Əliyeva. - Bakı: Elm və təhsil. - 2004. - 92 s. http://aghstafa.cls.az/front/files/libraries/288/books/974730557.pd
5. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / Ə.Ə. Əlizadə. - Bakı, - 2004. - 432 s.
6. Əhmədov, H.H. Pedaqogika / H.H.Əhmədov. - Bakı:Təhsil NPM, - 2008. - 304 s.
7. İbrahimov, F.N. Pedaqogika / F.N.İbrahimov, R.L.Hüseynzadə. - Bakı: Mütərcim, - 2012, c. 1. - 693 s.
8. Nəzərova, G.M. Pedaqoji sinergetikanın nəzəri əsasları / G.M. Nəzərova. - Bakı: Mütərcim, - 2017. – 95 s.
9. Sadıqov, F.B. Pedaqogika / F.B. Sadıqov. - Bakı: ADPU, - 2008. - 447 s. http://lib.bbu.edu.az/files/book/956.pdf
10. Seyidov, S.İ. Psixologiya / S.İ. Seyidov, M.Ə. Həmzəyev. - Bakı: YYSQ, -2014, -434 s.
11. Веретенникова В. С., Лучинина А. О. Самообразование школьников в процессе обучения // Научно-методический электронный журнал «Концепт», - 2016, Т.28. -с. 7–9. URL: http://e-koncept.ru/2016/56454.htm.

**Rəyçilər:** *. ped.ü.elm. dok.prof.*
**İ.H. Cəbrayılov**
*ped.ü.fəls.dok., dos.* **A.H. Veyisov**
**E-mail:** mubariz.suleymanov.74@bk.ru

**Redaksiyaya daxil olub:**14.06.2021